***Vətən müharibəsindən ötən bir il ərzində beynəlxalq birlik Azərbaycanın haqlı olduğunu, ədalətli mövqe tutduğunu, erməni faşizminin isə nə qədər təhlükəli, dağıdıcı olduğunu gördü. Əslində, bu obyektiv mövqenin müəyyənləşməsi Azərbaycanın səmərəli fəaliyyətinin nəticəsi idi. Bu barədə dövlətimizin başçısı İlham Əliyev həmin müsahibəsində deyib: "Müharibə qurtarandan sonra, elə ertəsi gün mənim tapşırığımla biz işə başladıq ki, müharibənin nəticələri bütün beynəlxalq birlik tərəfindən qəbul edilsin. Yəni, biz, belə deyək, bircə gün də həm ərazilərin bərpası baxımından, həm də yüzlərlə kilometrlik sərhədin qaydaya salınması, beynəlxalq birliyin bunu qəbul etməsi baxımından nail olduğumuz işləri dayandırmamışıq. Bu iş tədricən gedib, lakin hər halda biz buna nail olmuşuq…".***



# Vətən müharibəsi – xalqımızın Vətən, torpaq sevgisinin parlaq nümayişi

Azərbaycan Prezidenti yerli televiziya kanallarına verdiyi dərin məzmunlu müsahibəsində yuxarıdakı fikrinin təsdiqi olaraq, ATƏT-in Minsk qrupunun həmsədrlərinin ilk bəyanatlarını xatırladıb. Bildirib ki, bu təsisat savaşdan əvvəki dövrdə reallıqlardan tamamilə uzaq idi. Azərbaycan həmin qrupun fəaliyyətində vaxtaşırı qəbuledilməz məsələlərin şahidi olurdu. Lakin Vətən müharibəsindən sonrakı mərhələdə Minsk qrupunun bəyanatlarında tamamilə fərqli mənzərə nəzərə çarpırdı. Başqa sözlə, həm 10 noyabr tarixli üçtərəfli Bəyanatda, həm də başqa sənədlərdə artıq yeni reallıqlar üstünlük təşkil edirdi.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu haqlı mövqe, reallıq təsadüfi deyildi. Azərbaycan İkinci Qarabağ müharibəsindən əvvəl olduğu kimi, döyüşlər getdiyi vaxtda da öz konstitusion hüquqları, həmçinin BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində mübarizə aparırdı, öz əbədi-əzəli torpağı uğrunda işğalçıya qarşı vuruşurdu və yeni reallıq yaradırdı. Bu, fakt idi və bu həqiqət, necə deyərlər, dünyanın gözü qarşısında baş verirdi. Təbii ki, beynəlxalq ictimaiyyət, dünya gücləri, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar bu reallıqla hesablaşırdı.

**(ardı 6-cı səhifədə)**

Xalq qəzeti .- 2022.- 19 yanvar.- S.1;6.

# Vətən müharibəsi – xalqımızın Vətən, torpaq sevgisinin parlaq nümayişi



*(əvvəli 1-ci səhifədə)*

Bu, bir tərəfdən Azərbaycanın Vətən müharibəsindəki haqlı, ədalətli mövqeyinin, digər tərəfdən isə Azərbaycan Prezidentinin yürütdüyü yorulmaz xarici siyasətin məntiqi nəticəsi idi: "Ona görə bu, daimi iş idi. Nəticədə bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bu reallıqları tamamilə qəbul ediblər. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük. Bəli, amma bunlar hər şey başa çatandan sonra belə olub. Əlbəttə, çoxları bizə deyir ki, siz haqlı idiniz, siz hər şeyi düzgün edirdiniz, biz həmişə sizin tərəfinizdə olmuşuq. Lakin nədənsə çoxları bu barədə susmağı üstün tuturdu. Amma bilirsiniz, həmişə qaliblərin dostları çox olur. Biz bunu tarixdə dəfələrlə görmüşük, lakin hər halda bu, müsbət addımdır, xüsusən deməliyəm ki, buna İkinci Qarabağ müharibəsinin necə getməsi də yəqin ki, təsir göstərib…".

Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsini ədalətlə, beynəlxalq hüququn prinsiplərinə uyğun, beynəlxalq humanitar normaları pozmadan apardı, daim ləyaqət nümayiş etdirdi. Dövlətimizin başçısı bir çox çıxışlarında, elə yerli televiziya kanallarına sözügedən müsahibəsində də bu barədə bildirib: "Mən dəfələrlə demişəm, erməni tərəfdən dinc əhali arasında itki az olub. Olan qurbanlar da yalnız müharibədə iştirak edən dinc vətəndaşlar olub. Erməni tərəfi isə alçaqcasına hücumlar edib, bizim şəhərlərimizi daim bombalayıb. Təkcə Tərtərə 16 min mərmi düşüb. Təsəvvür edin, kiçik bir şəhər və 16 min mərmi. Bəs Gəncə, bəs Şuşa, "Skad"lar, "İskəndər"lər!".

Burada bir məqamı da xatırlatmaq yerinə düşərdi. Vətən müharibəsində silahlı qüvvələrimiz bir-birinin ardınca döyüş uğurları əldə etdikcə, torpaqlarımızı işğalçıdan təmizlədikcə Ermənistan ordusu da artıq rüsvayçı məğlubiyyətlə üzləşdiyini, məğlubiyyətin qaçılmaz olduğunu görürdü. Təəssüf ki, düşmən bunu anlasa da, namərd əməllərindən əl çəkmir, dinc şəhərlərimizi, mülki vətəndaşlarımızı atəşə tutur, infrastrukturu dağıdır, beləliklə, qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini bir daha təsdiqləyirdi. Ermənistan ordusu Bakı ətrafına, Gəncə, Mingəçevir başda olmaqla iri şəhər mərkəzlərinə, mülki əhalinin sıx olduğu yerlərə, yaşayış binalarına raket atmaqla faşist xislətini, vandalizmini göstərirdi. Digər tərəfdən, əslində, Ermənistan bu vəhşi, barbar hücumları ilə BMT-ni, beynəlxalq hüququ hədəfə alırdı, saymazlıq nümayiş etdirirdi.

Ümumiyyətlə, Ermənistanın hərbi-siyasi rəhbərliyi 30 il ərzində Azərbaycana qarşı törətdiyi təxribatlarla, vandal, barbar əməllərlə terrorçu dövlət olduğunu təsdiqləyib. Vətən müharibəcindən əvvəl və savaş dövründə işğalçı ölkənin silahlı qüvvələri regionun ən böyük strateji layihəsi olan Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tblisi-Ceyhan neft kəmərinin Yevlax rayonu ərazisindən keçən hissəsinə raket zərbələri endirməkdən, Mingəçevir Su Elektrik stansiyasını dağıtmağa cəhd göstərməkdən belə çəkinməyib. Lakin ordumuzun qətiyyətli tədbirləri nəticəsində həmin terror hərəkətlərinin qarşısı alınıb.

Azərbaycan Ordusu isə bütün savaş dövründə müharibə qanunlarına əməl edərək döyüşü ləyaqətlə apardı, dinc əhaliyə qarşı silah işlətmədi. Silahlı qüvvələrimiz əsas hədəfi ancaq düşmənin hərbi birləşmələrinə, texnikalarına və silah anbarlarına yönəltdi. Bu, bir daha bütün dünyaya xalqımızın yüksək mənəvi keyfiyyətini, insanpərvərliyini, əxlaqını göstərdi.

Müharibə dövründə Ermənistan tərəfi təkcə Azərbaycanın dinc əhalisinə qarşı deyil, həm də öz əsgərlərinə yönələn vəhşiliklər törədirdi. Ordusunda geniş miqyas alan fərariliyin qarşısını almaq üçün hərbi qulluqçuları səngərlərdə, yük maşınlarında zəncirlə bağlayırdı. İşğalçının hərbi və siyasi komandanlığı fərarilərin yerindəcə güllələnməsi barədə göstəriş verirdi.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərə müxtəlif ölkələrdən olan diplomatlar, jurnalistlər və ictimaiyyət nümayəndələrinin səfərləri təşkil olundu. Düşməndən təmizlənən ərazilərə gəlib yerlə yeksan edilən şəhər və kəndlərimizi, tamamilə sıradan çıxarılan infrastrukturu görən hər bir əcnəbi vətəndaş dəhşətə gəlirdi, şok yaşayırdı. Vandalizmin və barbarlığın miqyasının bu dərəcədə geniş miqyas aldığını heç kəs təsəvvürünə gətirə bilmirdi. Nəticədə bütün dünyaya özlərini sivil ölkə kimi təqdim edən ermənilərin əsl sifəti üzə çıxırdı.

Azərbaycan Prezidenti İlham Əliyev sözügedən müsahibədə savaşdan sonra düşməndən təmizlənən ərazilərə səfər edən əcnəbi vətəndaşların gördükləri acı mənzərə ilə ermənilərin bütün ideoloji konsepsiyasının tamamilə alt-üst olduğu barədə deyib: "Guya onlar sivil xalqdır, qədim xalqdır, barbar müsəlmanların əhatəsində qalıblar, Qafqazda xristianlığın nəticəsi olan nəcib xalqdır. Məgər nəcib xalq belə hərəkət edə bilərmi? Ölüləri qəbirdən çıxarıb onların qızıl dişlərini çıxartmaq, qəbirüstü daşları sındırıb qonşu ölkələrə satmağa aparmaq, məscidləri dağıtmaq, orada donuz saxlamaq. Biz bütün bunları göstərdik, hərçənd heç nə göstərməyə ehtiyac yox idi, sadəcə, adamların oraya gəlməsi lazım idi ki, özləri baxıb görsünlər. Mən hələ işğal dövründə müsəlman ölkələrə müraciətlə deyəndə ki, ermənilər dəhşətli hadisələr törədir, bütün müsəlmanların müqəddəs ziyarətgahlarını təhqir edirlər, bəlkə də çoxları buna inanmırdı, lakin indi özləri bunu görəndən sonra necə qəbul edəcəklər? Yəni burada baş verənlərin dərk edilməsində, bizim təkcə tarixi, hüquqi və siyasi baxımdan deyil, həm də xalis insanlıq baxımından haqlı olmağımızı dərk etməkdə daha bir dönüş baş verdi. Biz belə hərəkətlər etməmişik…".

Dövlətimizin başçısı yerli telekanallara müsahibəsində mühüm bir məqama da toxunub. Ölkə rəhbəri bu gün də dünyada bəzi beynəlxalq qurumların erməni barbarlığı qarşısında susmasını, laqeyd münasibət sərgiləməsini təəssüflə xatırladaraq, savaş günlərində UNESCO-nun Azərbaycanı ədalətsizcəsinə günahlandırdığını, bu qurumun ölkəmizi az qala vandalizmdə təqsirləndirməyə çalışdığını bildirib. Lakin UNESCO vəziyyətlə ətraflı tanışlıq, əsil həqiqəti, doğrunu müəyyənləşdirmək üçün Azərbaycana dəvət edildi. Ölkəmiz tərəfindən xarici diplomatların və əcnəbi jurnalistlərin işğaldan azad edilmiş ərazilərə səfərləri təşkil olunanda, ermənilərin dağıdıldığı iddia edilən kilsələrin və qəbirlərin əslində toxunulmaz saxlanıldığı təsdiqini tapanda UNESCO gəlməkdən imtina etdi. Niyə? Dövlətimizin başçısı sözügedən müsahibəsində bu sualı belə cavablandırıb: "Biz bütün illər boyu onları dəvət edirdik. Cavab necə olurdu? Deyirdilər ki, UNESCO siyasi məsələlərlə məşğul olmur. İkinci Qarabağ müharibəsi başa çatan kimi onlar təkidlə buraya gəlməyi xahiş etməyə başladılar. Biz marşrutları razılaşdırdıq və sair. Bu müddətdə baş verənlər məlumdur. Onlar özləri də gördülər ki, biz heç nəyi dağıtmırıq, amma buraya gələndə dağıdılmış məscidləri, dağıdılmış qəbiristanlıqları, tarixi abidələri, dağıdılmış şəhərləri görəcəklər, sadəcə, bunu kimin etdiyini deməyə məcbur olacaqlar. Deməli, bunu etmək istəmirlər. Bütün bu amillər, üstəgəl bizim fəal diplomatik işimiz bu reallıqların dünyada qəbul edilməsinə şərait yaratdı. Hesab edirəm ki, bu, böyük uğurdur…".

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***